# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ BÖLGƏSİNDƏ ARIÇILIĞIN İNKİŞAF ETDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Rauf Sultanov[1], Cəbrayıl Ağayev[2], Afaq Hacıyeva[3]**

[1]*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

[2,3] *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə vəTexniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Abşeron Təcrübə Stansiyası, afaqhaciyeva20@gmail.com*

Aparılmış tədqiqatlar və əldə edilən elmi mənbələrdən toplanan məlumatlar göstərir ki, ekoloji təmiz ərazilərdə arıçılığın inkişaf etdirilməsi bitkiçilik məhsullarının təbii tozlandırılması ilə yanaşı, təbii bal və arıçılıq məhsullarının istehsalının və keyfiyyətinin yüksəldilməsinə, həmçinin müştərək təsərrüfatçılıq ənənələrinin formalaşmasına şərait yaradır. Belə ənənələrin inkişafı bölgədə yaşayan insanlar üçün iş yerləri yaradır və gəlirlərini yüksəldir. Arıçılığın inkişaf etdirilməsinin əhəmiyyətli və mühüm sahələrindən biri entomofil bitkilərinin arılarla tozlandırılması və onların məhsuldarlığını yüksəltməkdən ibarətdir. Texniki entomofil bitkilərin tozlanmasında bal arılarından düzgün istifadə etdikdə bitkilərin növlərindən asılı olaraq orta məhsuldarlıq 20-35%-ə qədər artır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində arıçılığın inkişaf etdirilməsi bu ərazidə olan zəngin təbii bitki örtüyünün genofondunun davamlı inkişafına da şərait yaradır. Bitki örtüyünün müxtəlifliyi, faunanın ətraflı öyrənilməsi üzrə yarımçıq qalmış tədqiqatların davam etdirilməsi ilə nektarlı bitkilərin yayılma arealını dəqiqləşdirmək istiqamətində tədqiqatlar aparılması planlaşdırılır. Aparılan tədqiqatların nəticələri entomofil kənd təsərrüfatı və dərman bitkilərinin məhsuldarlığının əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olacaq, insanları qiymətli pəhriz və müalicəvi qida məhsulu sayılan balla, təbabəti arı zəhəri, arı südü, vərəmum, mum və çiçək tozcuğu ilə təmin etməyə xidmət edəcəkdir. İşğaldan azad olunmuş ərazilərdə ekosistemin yerli genofonda aid olan flora və fauna növləri ilə bərpa edilməsində arıçılığın intensiv texnologiyalarla inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu ərazilərdə arıçılığın inkişaf etdirilməsi mühüm dövlət əhəmiyyətli işdir. Belə ki, işğal olunmuş ərazilərdə 1990-cı ilin 1 yanvar vəziyyətinə arı ailələrinin miqdarı haqqında statistik məlumatlara görə Ağdam ərazisində 1580, Kəlbəcərdə 3765, Laçında 3393, Hadrudda 2220, Ağdərədə 640, Martunidə 710, Əskəranda 6729, Zəngilanda 6215 arı ailəsi olmuşdur. İşğaldan əvvəlki dövrlərdə qeyd edilən bölgələrdə 220 tondan çox əmtəəlik bal istehsal olunurdu. Erməni təcavüzkarları 30 il ərzində 21 minə yaxın arı ailəsini və ondan alınan məhsulları mənimsəmişlər. Kiçik Qafqaz ərazisində dünyanın ən uzun xortumlu arıları yayılmışdır. Arının xortumunun uzunluğu artdıqca onun bitkilərdən istifadə etmə ehtimalı daha çox olur. Əsas bal bitkilərinin əksəriyyətində nektar ifrazatı çiçəyin dərinliyində yerləşir və yalnız uzun xortuma malik arılar onu toplaya bilirlər. Məhz işğal olunmuş ərazilərdə dünyanın ən uzun xortumlu arıları olan məşhur Qabaqtəpə arı cinsləri yayılmışdır. Q.A.Qorbaçova görə, Bordey Qafqaz ərazisinin Qabaqtəpə arılarının xortumunun uzunluğu 6.833 mm, V.V.Alpatova görə, 6.856 mm, A.S.Skorkiyə görə, 7.10 mm, və prof. R.L.Sultanova görə, 6.684 mm təşkil edir. Kiçik Qafqazın Qabaqtəpə arıları xortumunun uzunluğuna görə dünyanın 20-dən çox ölkəsinə aparılaraq yerli arıların seleksiyası və damazlıq işlərində istifadə edilmişdir. Erməni işğalçıları bu ərazilərdə yerləşərək 15 mindən artıq dünya üzrə məşhur uzunxortumlu Qabaqtəpə arılarını mənimsəmiş, torpaqlarımızı öz adlarına çıxardığı kimi arılarımızın genefondunu da öz adlarına çıxarmışlar. İşğaldan azad olunmuş ərazilərdə azı 25-30 min arı ailəsi saxlamaq, hər arı ailəsindən 15 kq bal almaqla hər il 300-400 ton bal istehsal etmək mümkündür. Ona görə də işğaldan azad olunmuş ərazilərdə arıçılığın inkişaf etdirilməsi məqsədilə 5 illik plan hazırlanmalı, arıçılığın yem bazasının təşkili, mütəxəssislərin yetişdirilməsi, müasir texnologiyaların tətbiqi məsələlərinə xüsusi yer ayrılmalıdır.